**2013-cü il aprelin 25-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Latviya Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında bitki karantini və mühafizəsi sahəsində Saziş"in təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2013-cü il aprelin 25-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Latviya Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında bitki karantini və mühafizəsi sahəsində Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi bu Fərmanın 1-ci hissəsində göstərilən Sazişin müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Fərmanın 1-ci hissəsində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Latviya Respublikası Hökumətini xəbərdar etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 11 iyun 2013-cü il
№ 911

**Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Latviya Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında**

**SAZİŞ**

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Latviya Respublikasının Kənd Təsərrüfatı Nazirliyi,

karantin tətbiq edilən zərərli orqanizmlərin daxil olmasının və yayılmasının qarşısının alınması sahəsində əməkdaşlığın əhəmiyyətini etiraf edərək,

Tərəflərin dövlətləri arasında ticarət əlaqələrinin inkişafı və kommersiya müqavilələrinin həyata keçirildiyi zaman öz ölkələrinin ərazilərinin karantin tətbiq edilən zərərli orqanizmlərin daxil olmasından və yayılmasından qarşılıqlı olaraq qorunması maraqlarından irəli gələrək,

bitki karantini və mühafizəsi sahəsində əməkdaşlığı davam etdirmək və genişləndirmək məqsədi ilə dövlət karantin tədbirlərinin əlaqələndirilməsini təmin etmək istəyini rəhbər tutaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**

Tərəflərin milli qanunvericiliyinə riayət etmək şərtilə, bu Sazişdə istifadə edilən terminlər aşağıdakı mənaları daşıyır:

- **zərərli orqanizm** - bitki və bitkiçilik məhsullarına zərərli olan bitkilərin, heyvanların və patogen agentlərin istənilən növü, növün dəyişmiş forması və ya biotipi;

- **karantin tətbiq edilən zərərli orqanizm** - təhlükəyə məruz qalmış ərazidə hələlik mövcud olmayan və yaxud mövcud olaraq məhdud dairədə yayılmış, rəsmi mübarizə obyektinə çevrilmiş və həmin ərazi üçün potensial iqtisadi əhəmiyyətə malik zərərli orqanizm;

- **karantin nəzarətində olan material** - xüsusilə beynəlxalq yükdaşımaları zamanı zərərli orqanizmlərin məskunlaşmasına və ya yayılmasına şərait yaradan, fitosanitar tədbirlərin aparılmasını tələb edən istənilən bitki, bitkiçilik məhsulu, saxlanma yeri, qablaşdırma materialı, nəqliyyat vasitəsi, konteyner, torpaq və hər hansı digər orqanizm, obyekt və ya material.

**Maddə 2**

Bu Sazişin maddələrindən irəli gələn fəaliyyətlərin həyata keçirilməsi və əlaqələndirilməsi üçün Tərəflərin səlahiyyətli orqanları aşağıdakılardır:

Azərbaycan Respublikası tərəfindən - Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidməti;

Latviya Respublikası tərəfindən - Dövlət Bitki Mühafizə Xidməti.

## Maddə 3

Tərəflər milli qanunvericilikdə nəzərdə tutulmuş qaydada razılaşdırılmış karantin nəzarətində olan materialların siyahılarını mübadilə edirlər, hər bir Tərəf beynəlxalq fitosanitar və ya təkrar ixracat fitosanitar sertifikatını tələb edir.

Bu Sazişin 1 nömrəli əlavəsində göstərilən karantin tətbiq edilən zərərli orqanizmlərin siyahılarına müvafiq olaraq, Tərəflər, milli qanunvericiliyə uyğun olaraq dövlət ərazisinə idxal və dövlət ərazisindən ixrac olunan zaman karantin nəzarətində olan materialların yoxlanılması üzrə lazımi tədbirlər həyata keçirirlər.

Qarşılıqlı razılaşma əsasında Tərəflərin səlahiyyətli orqanları tərəfindən karantin nəzarətində olan materialların siyahısına əlavələr və dəyişikliklər edilə bilər.

Tərəflərin səlahiyyətli orqanları milli qanunvericiliyə uyğun olaraq, karantin tətbiq edilən zərərli orqanizmlərin siyahısında təsdiq edilmiş dəyişikliklər barədə bir-birlərini iki həftə ərzində xəbərdar edirlər.

Pullu xidmətlərin mövcud olduğu təqdirdə, karantin nəzarətində olan materialların yoxlanılmasına çəkilən xərclər yük sahibi tərəfindən Tərəflərin dövlətlərinin ərazisində mövcud tariflərə uyğun ödənilir.

## Maddə 4

Tərəflər bir ölkədən digər ölkəyə göndərilən karantin nəzarətində olan materialların idxal, ixrac və tranziti üzrə Tərəflərin milli qanunvericiliklərinə uyğun olaraq, qəbul edilmiş fitosanitar qaydalara riayət etməyi öz öhdəliklərinə götürürlər.

## Maddə 5

Tərəflər bitki karantini və mühafizəsi sahəsində səmərəli əməkdaşlığı təmin etmək məqsədi ilə milli qanunvericiliklərinə müvafiq olaraq aşağıdakı öhdəlikləri götürürlər:

- bir Tərəfin dövlət ərazisindən digər Tərəfin dövlət ərazisinə karantin nəzarətində olan materialların idxal, ixrac və tranziti zamanı karantin tətbiq edilən zərərli orqanizmlərin daxil olmasının qarşısını almaq üçün zəruri tədbirlər həyata keçirmək;

- Tərəflərin dövlətlərinin ərazisində bitki karantini və mühafizəsi tədbirlərini tənzimləyən qayda və əsasnamələrin mübadiləsini həyata keçirmək;

- Tərəflərin dövlətlərinin ərazisində karantin tətbiq edilən zərərli orqanizmlərin qeydə alınması və yayılması barədə məlumat mübadiləsi aparmaq;

- bitki karantini və mühafizəsi sahəsində elmi tədqiqat işləri barədə məlumat mübadiləsi aparmaq;

- karantin nəzarətində olan materialların istehsal və tədarük yerlərində seçmə yolu ilə fitosanitar yoxlanılmasını həyata keçirmək, bitki karantini və mühafizəsi məsələlərini operativ həll etmək;

- bitki karantini və mühafizəsi sahəsində elmi nailiyyətlərin və müvafiq təcrübənin öyrənilməsi məqsədi ilə qarşılıqlı səfərlər vasitəsilə mütəxəssis mübadiləsini həyata keçirmək;

- bitki karantini və mühafizəsi üzrə tədbirlərin həyata keçirilməsində, karantin tətbiq edilən zərərli orqanizmlərin aşkar edilməsində, lokallaşdırılmasında, məhv edilməsində, zərərsizləşdirməsində qarşılıqlı elmi, texniki və digər köməklik göstərmək;

- fitosanitar və ya təkrar ixracat fitosanitar sertifikatı və ya daxil edilmiş məlumatlar barədə şübhəli hallar yarandıqda, ikinci Tərəfin yazılı tələbi əsasında, sertifikatı verən dövlətin milli bitki mühafizəsi təşkilatı tərəfindən əlavə və ya dəqiqləşdirilmiş məlumatı təqdim etmək.

**Maddə 6**

Tərəflər dövlətlərinin ərazisinə idxal, ixrac edilən və ya tranzitlə keçən karantin nəzarətində olan materialla karantin tətbiq edilən zərərli orqanizmlərin daxil olmasının qarşısının alınması üçün milli qanunvericiliyə və beynəlxalq standartların tələblərinə uyğun olaraq, bütün zəruri tədbirlərin həyata keçirilməsini öhdələrinə götürürlər.

Bir Tərəfin dövlət ərazisindən digər Tərəfin dövlət ərazisinə idxal edilən karantin nəzarətində olan materiallardan ibarət hər bir yük ixrac edən ölkənin səlahiyyətli orqanı tərəfindən milli qanunvericilikdə nəzərdə tutulmuş qaydada verilmiş fitosanitar və ya təkrar ixracat fitosanitar sertifikatı ilə müşayiət edilməlidir. Sertifikat karantin nəzarətində olan materialların idxal edən Tərəfin fitosanitar tələblərinə cavab verilməsini müəyyən etməlidir və ayrı-ayrı mənşəli yüklərin idxalı idxal edən dövlətin idxal karantin icazəsi ilə nizamlanır.

Fitosanitar sertifikata və idxal karantin icazəsinə çəkilən xərclər yük sahibi tərəfindən Tərəflərin ərazilərində qəbul olunmuş tariflər (rüsum) üzrə ödənilir.

Tərəflərin səlahiyyətli orqanları milli və beynəlxalq tələblərə uyğun olaraq, karantin nəzarətində olan materiallara dair əlavə fitosanitar tədbirlər tətbiq etmək (zərərsizləşdirmək, yenidən qablaşdırmaq, ,kənar qarışıqlardan və torpaqdan azad etmək, yuyulma, hermetildik və s.) hüququna malikdirlər.

Karantin nəzarətində olan materialların tranziti Tərəflərin milli qanunvericiliyinə və onların dövlətlərinin iştirakçısı olduğu beynəlxalq müqavilələrə müvafiq olaraq həyata keçirilir.

**Maddə 7**

Karantin nəzarətində olan materialların Tərəflərin dövlət ərazisindən ixracı zamanı qablaşdırma materialı kimi milli qanunvericiliyə əsasən və Beynəlxalq Bitki Mühafizəsi Konvensiyasının 15 nömrəli Fitosanitar Tədbirləri üzrə Beynəlxalq Standartın tələblərinə uyğun olaraq xüsusi işləmədən keçən ağacdan olan, fitosanitar karantin tətbiq edilən zərərli orqanizmlərin daşıyıcıları olmayan və torpaqdan azad olan taxta kəpəyi, yonqar, kağız, plastik və digər materiallar tətbiq edilir.

Tərəflərin birinin dövlət ərazisindən digər Tərəfin dövlət ərazisinə karantin nəzarətində olan materialların daşınmasında istifadə olunan nəqliyyat vasitələri əsaslı təmizlənməli və zərurət yarandıqda zərərsizləşdirilməlidir.

**Maddə 8**

Tərəflərin dövlət əraziləri ilə karantin nəzarətində olan məhsul, material və obyektlərin idxalı, ixracı və tranziti Tərəflərin milli qanunvericiliyində müəyyən edilmiş sərhəd buraxılış məntəqələri vasitəsilə həyata keçirilir.

**Maddə 9**

Fitosanitar nəzarəti zamanı karantin tətbiq edilən zərərli orqanizmlər aşkar edildiyi hallarda, belə karantin nəzarətində olan materiallar, ixracatçı ölkəyə geri qaytarılmalı və ya zərərsizləşdirilməlidir, əgər

zərərsizləşdirmənin nəticəsi qənaətbəxş deyildirsə, onda yük sahibinin iştirakı ilə müəyyən sənədlərin rəsmiləşdirilməsindən sonra yük məhv edilməlidir.

Karantin nəzarətində olan materiallar fitosanitar və ya təkrar ixracat fitosanitar sertifikatı ilə müşayiət olunmadıqda geri qaytarılmalıdır. Bütün hallarda Tərəflərin səlahiyyətli orqanları uyğunsuzluq barədə Beynəlxalq Bitki Mühafizəsi Konvensiyasının 13 nömrəli Fitosanitar Tədbirləri üzrə Beynəlxalq Standartının tələblərinə uyğun olaraq bildiriş verməlidirlər.

**Maddə 10**

Bu Sazişin maddələrinin həyata keçirilməsi ilə əlaqədar praktiki məsələlərin həlli üçün Tərəflərin səlahiyyətli orqanları zərurət olduqda, iki ildə bir dəfədən az olmamaq şərtilə hər bir Tərəfin dövlət ərazisində növbə ilə birgə müşavirələr təşkil edirlər. Müşavirənin yeri, tarixi və müzakirə olunan məsələlərin siyahısı Tərəflərin səlahiyyətli orqanları tərəfindən iki ay öncədən müəyyən edilir. Müşavirənin keçirilməsi ilə bağlı xərcləri qəbul edən Tərəf ödəyir. Nəqliyyat, kommunal və gündəlik xərcləri hər bir Tərəf özü ödəyir.

**Maddə 11**

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun ayrılmaz tərkib hissəsi olan və 14-cü maddəsində müəyyən olunan qaydada qüvvəyə minən ayrıca protokollar formasında rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

**Maddə 12**

Bu Sazişin müddəalarının təfsiri və tətbiqi ilə bağlı yarana biləcək fikir ayrılığı Tərəflər arasında danışıqlar yolu ilə həll edilir.

**Maddə 13**

Bu Sazişin müddəaları Tərəflərin iştirakçısı olduğu digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə təsir etmir.

**Maddə 14**

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən etibarən qüvvəyə minir.

Bu Saziş 5 (beş) il müddətinə bağlanılır və Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə 6 (altı) ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat vermədikdə, Sazişin qüvvəsi avtomatik olaraq növbəti 5 (beş) illik müddətlərə uzadılır.

Bu Saziş Bakı şəhərində 2013-cü il 25 aprel tarixində hər biri Azərbaycan, latış və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər bərabər autentikdir.

Bu Sazişin təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətndən istifadə edilir.

**Azərbaycan Respublikasının**
**Kənd Təsərrüfatı Nazirliyi**
**adından**
*(imza)*

**Latviya Respublikasının**
**Kənd Təsərrüfatı Nazirliyi**
**adından**
*(imza)*

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Latviya Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"ə
1 nömrəli ƏLAVƏ

## Azərbaycan Respublikasında aşkar edilməyən, məhdud dairədə yayılmış və ölkə üçün potensial təhlükə törədə bilən karantin tətbiq edilən zərərli orqanizmlərin

## S İ Y A H I S I

### Azərbaycan Respublikası ərazisində aşkar edilməyən, karantin tətbiq edilən zərərli orqanizmlər (A 1 qrupu)

**Həşəratlar (A)**

Graphognathus (Pantomorus) leucolomaBoheean
AgrilusmaliMatsueura
Rhagoletispomonella (Walsh)
Liriomyzatrifolii (Burgess)
Ceratitiscapitata (Wiedeeann)
Numoniapyrivorella (Matsueura)
Spodopteralitura (Fabricius)
Tetradacuscitri (Chen)
Zabrotessubfasciatus (Boheean)
Anguinatritici (Steinbuch) Chitwood
Aphelenchoidesbesseyi Christie
Callosobruchuschinensis Linnaeus
Lymantriadispar Linnaeus (asianrace)
Caulophiluslatinasus (Say)
PectinophoramalvellaHb.
Ceroplastesrusci Linnaeus
Ditylenchusdipsaci (Kühen) Filipjev
TrogodermagranariumEverts
DitylenchusdestructorThome
Meloidogynechitwoodi Golden et al.
DacusciliatusLoew
Aleurocanthuswoglumi Ashby
Parasaissetia nigra (Nietner)
DiabroticavirgiferaLeconte
Cacoecimorphapronubana (Hübner)
Globoderarostochiensis (Wollenweber) Behrens
Conotrachelusnenuphar (Herbst)
SpodopteralittoralisBoisduval
ThripspalmiKarny
Bemisiatabaci (Gennadius)
Pectinophoragossypiella (Saunders)
Unaspiscitri (Comstock)
Carposinaniponensis Walsighae
Bursaphelenchusxylophilus (Steiner et Buhrer) Nickle
Anthonomusgrandis Boheman

Unaspisyanoneıisis (Kuwana)
Pseudococcuscitriculus Green
Bactroceracucurbitae (Coguillett)
Pseudococcusgahani Green
Globoderapallida (Stone) Behrens
EariasinsulanaBoisduval
Aleurothrixusfloccocus Maskell
Popillia japonica Newmann
Saissetiaoleae (Olivier)
AnarsialineatellaZeller

**Bakteriyalar (B)**

Xanthomonas oryzae pv. oryzae (Ishiyama) Swings et al.
Xanthomonas oryzae pv. oryzicola (Fang et al.) Swings et al.
Xanthomonascampestrispv. corylina (Eilleretal.)Dye
Clavibactermichiganensissubspsepedonicus
(SpieckermannetKotthoff) Davis et al.
Ralstoniasolanacearumrace 1 (Smith) Yabuuchi et al.
Erwinia stewartii (Smith) Dye
Pseudomonas caryophylli (Burkholder) Staret Burkholder
Xanthomonascampestrispv. Phaseoli (Seith) Dye
Erwiniaamylovora (Burrill) Winslow et al.
Xanthomonas campestris pv. vesicatoriaDye
Xanthomonas campestris pv. citri (Hasse) Dye

**Göbələklər (F)**

TilletiaindicaMitra
Tilletia controversa Kuhn
PhomopsishelianthiEuntanola - Cvetkovicetal.
Phomaexigua var. foveata (Foister) Boereea
Synchytriumendobioticum (Schilbersky) Percival
Thecaphoraşolani (Thirumulachar et O"Brien) Eordue
Cochliobolusheterostrophus (Drechsler) Drechsler
(RaceT) (Helminthosporium maydis Nisikado et Eiyake)
Stenocarpella macrosporaEarle Sutton (Stenocarpella maydisBerkeley Sutton)

Cochliobolus carbonum R.R. Nelson
Phialophoracinerescens (Wollenweber) van Beyma
Uromycestransversalis ( VonThümen)Winter
Deuterophomatracheiphila Petri
Glomerellaqossypii Edgerton
Didymellachrysanthemi (Tassi) Garibaldiet. Gullino
Pucciniahoriana P. Hennings
ElsinoefawcettiiBitancourtetA.E.Jenkins
Cryphonectriaparasitica (Murrill) Barr
Phymatotrichopsisomnivora (Duggar) Hennebert

**Virus, mikoplazma və viroidlər (V)**

Tristeza virus

**Alaq otları və parazit bitkilər (W)**

CenchruspauciflorusBenthae
AmbrosiapsilostachyaDe Candolle
SolanumcarolinenseLinnaeus
Strigasp.
IvaaxillarisPursh
AmbrosiatrifidaLinnaeus
SolanumtriflorumNuttall
Solanumelaeagnifolium Cavara

**Azərbaycan Respublikası ərazisində məhdud dairədə yayılmış karantin tətbiq edilən zərərli orqanizmlər (A 2 qrupu)**

**Həşəratlar (A)**

HyphantriacuneaDrury
IceryapurchasiMaskell
CallosobruchusmaculatusFabricius
Viteusvitifoliae (Fitch)
Гuadraspidiotusperniciosus (Comstosk)
Leptinotarsadecemlineata Say
PseudococcuscomstockiKuwana

PhyllocnistiscitrellaStainton
Dialeurodescitri(Ashmead)
Grapholitamolesta(Busck)
Pseudoulacaspispentagona (Targioni- ToZZetti)
Lopholeucaspisjaponica (Cockerell)
Ceroplastesj aponicusGreen

**Alaq otları və parazit bitkilər (W)**

Cuscutasp.
Acroptilonrepens (Linnaeus) DeCandolle
SolanumcomutueDunal
AmbrosiaartemisiifoliaLinnaeus

**Azərbaycan Respublikası üçün potensial təhlükə törədə bilən zərərvericilər (B 1 qrupu)**

**Həşəratlar (A)**

Phthorimaeaoperculella (Zeller)